ISSN:2148-2292

Akademik Tarih ve Düşünce Dergisi, 2019, 6 (3), ss. 1786-1801

Academic Journal of History and Idea, 2019, 6 (3), pp. 1786-1801

Araştırma Makalesi

Original Article

# Fiqh elminin metodologiyası və hədisşünaslıqla olan əlaqəsi (Şiə məzhəbi kontekstində)

**İbrahim Quliyev***

**ORCID: 0000-0001-9789-3148**

**Öz**

Fiqh üsulu İslam ilahiyyatında xüsusi və əhəmiyyətli bir yerə sahibdir. Bu elm vasitəsi ilə şəriətin (İslam hüququnun) metodoloji əsasları, dəlilləri, onların əhəmiyyəti, növləri və digər xüsusiyyətləri öyrənilir. Fiqh üsulu alimlərinə görə, dəlil dedikdə, düzgün hökm verməyə səbəb olan və ya bir hökmün əsaslı olduğunu təmin edən vasitə nəzərdə tutulur. Deməli, fiqhdə dəlil dedikdə, ümumiyyətlə, fiqhi bir hökmün dini-hüquqi dayağı başa düşülür. Buradan belə aydın olur ki, fiqh elminin əsasları (üsuli-fiqh) elmi vasitəsi ilə dəlillərdən hökm əldə edilməsinin yolları öyrənilir.Şiə məzhəbində dəlil və digər üsuli istilahları tədqiq edərkən sözgedən məzhəbin daxilində meydana gələn üsul qollarının - Əxbarilər və Üsulilərin – bu mövzudakı qeyd etdikləri diqqətdən kənarda qalmamalıdır. Çünki Əxbarilərə görə, şəri hökmlərin dəlilləri yalnız Qurani-Kərim və hədisi-şəriflərdən (sünnədən) ibarətdir. Hədisi-şərif həzrət Peyğəmbər (s) və məsum on iki İmamın (ə) söz, fel və təqrirləri olaraq qəbul edilmişdir. Bu mövzuda məşhur Əxbari alimi Məhəmməd Əmin əl-Astrabadinin (öl. 1626) fikri qeyd edilə bilər. Ona görə, Uca Allah qiyamətə qədər ümmətin ehtiyac duyduğu hər şeyi bildirmiş, Quran və Peyğəmbərin (s) sünnəsi də yalnız itrət-məsum İmamların (ə) da daxil olduğu Əhli-beyt (ə)-tərəfindən bilinə və izah edilə bilər.

**Açar sözlər**: Fiqh (İslam hüququ), Hədis, Tarix, Mənbəşünaslıq

**Gönderme Tarihi: 22/08/2019** **Kabul Tarihi:20/09/2019**

* *Fəlsəfə üzrə fəlsəfə doktoru, Bakı İslam Universiteti, Qafqaz Müsəlmanları İdarəsi,E-Posta: quliyev.ibrahim.78@mail.ru*

© ATDD Tüm Hakları Saklıdır

CC BY

# The methodology of the science of Islamic law (fiqh) and its relationship with hadith studies. (in the context of Shiite worship)

**İbrahim Quliyev**
**ORCID: 0000-0001-9789-3148**

## Abstarct

Usul al-fiqh has a special and important place in Islamic theology. Thanks to this science, the methodological foundations, evidence, their meaning, types and other features of Sharia (Islamic law) are studied. According to scholars in the field of usul al-fiqh, evidence is a means by which a correct or reasonable judgment can be made. Thus, when speaking of evidence in Islamic law (fiqh), the religious legal justification of the fiqh command is usually generally understood. From this it becomes clear that the foundations of the science of fiqh (usul al-fiqh) are being studied by means of obtaining evidence from decrees.Such methods in this religion as Akhbarites and Usulites should not be ignored. According to Akhbarits, the evidence of Sharia decrees is serious from the Koran and Hadiths. The hadiths were affirmed as words, verbs and speech of the Prophet (phub) and the twelve Imams. In this regard, the thought of the famous scholar Akhbarit Mohammed Amin al-Astrabadi (d. 1626) can be noted. Therefore, everything should be known and explained only by Ahl al-Bayt (as), which includes the Imams. This information can only be known thanks to the imam. All that is required of Muslims is all that is needed, and there is no need for discussion, publicity or comparative evidence.

**Keywords:** Fiqh (Islamic law), Hadith, History, Source study

**Received Date: 22/08/2019** **Accepted Date: 20/09/2019**

# Методология науки об исламском праве (фикх) и её связь с хадисоведением.
# (в контексте шиитского вероисповедания)

**РЕЗЮМЕ**

Усуль аль-фикх занимает особое и важное место в исламском богословии. Благодаря этой науке изучаются методологические основы, доказательства, их значение, типы и другие особенности шариата (исламского права). По мнению ученых в области усуль аль-фикх, доказательства являются средством, с помощью которого можно сделать правильное или обоснованное суждение. Таким образом, говоря о доказательствах в исламском праве (фикхе) в основном обычно понимается религиозно-правовое обоснование веления фикха. Из этого становится ясно, что основы науки о фикх (усуль аль-фикх) изучаются способами получения доказательств из велений.При изучении доказательств и других методов в шиитском вероисповедании, не стоит оставить без внимания и таких ветвей в методологии этого вероисповедания, как Ахбариты и Усулиты. Потому что, по словам Ахбаритов, доказательства шариатских постановлений исключительно из Корана и хадисов. Хадисы были приняты как слова, глаголы и речь Пророка (с) и двенадцати Имамов. В этом отношении может быть отмечена мысль знаменитого ученого Ахбарита Мухаммед Амин аль-Астрабади (ум. 1626 г.). Следовательно, Всемогущий Аллах открыто заявил обо всем, что нужно Умме до Судного Дня, а Корана и Сунна Пророка может быть познана и объяснена только Ахл аль-Байтом (ас), который включает в себя Имамов. По этой причине вся информация, связанная с оригиналом или любым другим доказательством, может быть известна только посредством имамов. Поскольку вся информация и объяснения, которые нужны мусульманам при жизни, содержатся в этих источниках - Коране и Сунне, нет необходимости в рассуждениях, публичности или сравнительных доказательствах.

**Ключевые слова**: фикх (исламское право), хадис, история, источниковедение

**Получено: 22/08/2019** **Принято: 20/09/2019**

## Giriş

Təəssüf hissi ilə qeyd etmək lazımdır ki, müsəlmanlar müxtəlif məzhəb və firqələrə bölünmüşlər. Bu məzhəblər bəzən bir-birlərinə qarşı anti-təbliğatlar aparır və bu yolda kütləvi yazılar yazırlar. Hələ bu azmış kimi yazdıqları kitab və məqalələri müxtəlif dünya dillərinə tərcümə edərək İslama qarşı antipatiyanın yaranmasına, İslamdakı məzhəblərin bir-birlərinə qarşı olan xoş və mülayim rəftarlarını belə kölgədə qoymağa da səbəb olurlar. İslamdakı parçalanmanı və məzhəblərin olmasını heç kəs inkar edə bilməz. İslam ümmətinin parçalanması, onun müxtəlif məzhəblərə və firqələrə bölünməsi məhz Peyğəmbərimiz (s) tərəfindən öncədən xəbər verilmişdir. Beləliklə, Peyğəmbərin (s) öncədən verdiyi xəbər özünü doğrultdu. Müsəlmanlar müxtəlif məzhəblərə bölündülər. Bu gün bizim də ölkəmizdə müxtəlif məzhəb və firqələrin nümayəndələri bir-birlərinə qarşı mülayim və dostluq mühitində yaşamaqdadırlar. Lakin buna baxmayaraq, bəzi qeyri-ənənəvi firqələrin ölkəmizdə yayılması bəzən müəyyən problemlərə də səbəb olur. Belə olduğu təqdirdə müsəlman dünyasının hər yerində olduğu kimi, bizim də ölkəmizdə ənənəvi məzhəblərin tarixini yazmaq, onların əqidə üsullarını bilmək və gənclərə öyrətməyə böyük ehtiyac vardır. Çünki ölkəmizdə yaşayan müsəlmanların mənsub olduqları ənənəvi məzhəblər tanıdılmasa, yeniyetmə və gənclərimizin qeyri-ənənəvi firqələrə qoşulması və nəticədə hansı problemlərin baş verməsi heç kəsə sir deyil. Bu problemlər isə müasir cəmiyyətimizdə daha da qabarıq şəkildə özünü biruzə verməkdədir. Bütün bu deyilənlərin fonunda bildirmək istəyirəm ki, qələmə aldığımız “Fiqh elminin metodologiyası və hədisşünaslıqla olan əlaqəsi (Şiə məzhəbi kontekstində)” adlı məqalə müasir cəmiyyətimizin, xüsusilə də şiə məzhəbinə mənsub şəxslərin mövzu ilə bağlı dini biliklərinin formalaşmasına, öz fiqhi məsələlərini elmi şəkildə tanımalarına və bunun da nəticəsində qeyri-ənənəvi firqələrə qoşulmamalarına yardımçı ola bilər.

Bildiyimiz kimi, son dövrlər Azərbaycanda islamşünaslıq üzrə elmi tədqiqat işləri genişlənməkdədir. Sovetlərin ardınca bu sahədə olan boşluğu doldurmaq baxımından bu tipli işlərin aktuallığı heç bir şübhə doğurmur. İslamşünaslıq və ilahiyyat üzrə ən maraqlı mövzular ilkin dövrlərdə meydana gəlmiş və ölkəmiz üçün ənənəvi olan məzhəblərin öyrənilməsi ilə ortaya çıxır. Bu baxımdan məqaləmizin mövzusu, öz yeniliyi və əhəmiyyəti ilə seçilir. Tədqiqata cəlb etdiyimiz mövzu İslamın mühüm məzhəblərindən birinin fiqhi dəlilləri və əsas hədis mənbələri haqqındadır. Şiəliyin fiqhi

dəlillərini və hədis qaynaqlarının tədqiqi Azərbaycan islamşünaslığı tarixi haqqında təsəvvür yaratmaq cəhətdən də diqqətəlayiqdir. Buna görə də məqaləmiz təkcə islamşünaslıq üçün deyil, həm də ümumazərbaycan mənəvi mədəniyyəti üçün də dəyərli sayıla bilər.Beləliklə, məqalədə Azərbaycanda ilk dəfə olaraq Şiə məzhəbinin üsuli-fiqhinin təşəkkül tarixi, əsas mənbələri, ən görkəmli nümayəndələri və hədisşünaslıq sahəsindəki qaynaqları araşdırılır və onun İslam dünyasındakı yeri müəyyənləşdirilir.Qeyd etmək lazımdır ki, mövzu ilə bağlı müsəlman Şərqində bir sıra mötəbər və sanballı əsərlər ortaya qoyulmuşdur. Bu mənada məqaləmizin üstünlüyü və yeniliyi ondadır ki, biz bu məqalədə mövcud qaynaqlara tənqidi yanaşmış və onlardakı müsbət cəhətləti əxz edərək ümumi bir məxrəcə gəlməyə, barışdırıcı mövqe tutmağa çalışmış və ümumislam dəyərləri və mənafelərinə üstünlük vermişik. Həmçinin bu tədqiqatımızda başlıca üstün cəhətlərindən biri odur ki, araşdırdığımız əsərlərdə bu məsələlərə xüsusi diqqət yetirmiş, onları müasir elmi tələblər səviyyəsində təhlil etmiş və bir sıra maraqlı elmi nəticələr ortaya qoymağa çalışmışıq.

## I. Fiqh üsulunun əhəmiyyəti, predmeti və əsas qaynaqları

Miladi XI əsrin böyük fiqh üsulu alimləri Şeyx Müfid (945-1022) və onun tələbəsi Seyid Mürtəzanın (öl. 1044) böyük cəhdləri nəticəsində Əxbarilər öz təsirlərini itirdilər. Şeyx Müfid hədislərin başa düşülməsi üçün ağıldan (əql) istifadə etməsi, lazım gəldikdə rəvayətlərin səhihlik baxımından tədqiq edilməsi və tələbələri Seyid Mürtəza ilə Şeyx Tusinin (öl. 1067) bu üsul qaydalarını tənzimləyərək inkişaf etdirmələri Əxbarilərin zəifləməsinə və Üsuli anlayışın rəvac tapmasına səbəb oldu.[1]

Yuxarıda qeyd edildiyi kimi, Əxbarilər dəlil olaraq yalnız Kitab (Qurani-Kərim) və Məsumların (ə) söz, fel və təqrirlərindən ibarət olan sünnəni (hədisləri) qəbul edirlər. Buna görə də Əxbari alimlərinin dəlillərin təsnifatı və digər üsul mövzularında fikirləri azlıq təşkil edir. Üsulçu alimlər isə dəlillər və digər üsula aid mövzularında bir çox metodlar (qaydalar) ortaya qoymuşlar.

Üsuli-fiqh elminə aid ilk əsəri əhli-sünnə məzhəbində Məhəmməd bin İdris əş-Şafei (öl. 820) yazmışdır. Onun yazdığı əsərin adı "ər-Risalə"dir. Amma Şiə məzhəbinə gəldikdə isə, qeyd etmək lazımdır ki, bu sahədə ilk addım İmam Məhəmməd Baqir (ə) (676-733) və oğlu İmam Cəfər Sadiqin (ə) (699-765) dövründə atılmışdır. Belə ki, hər iki İmamın (ə) yaxın tələbəsi olmuş Hişam bin Həkəm (öl. 795) bu sahədə ilk əsər yazan müəllif kimi qeyd edilir. Onun yazdığı əsərin adı "Risalə fil-əlfaz"dır. Müəllif adı

---

[1] Hayreddin Karaman,*"Caferiyye", Diyanet İslam Ansiklopedisi*, VII c. İstanbul: TDV Yayınları, 1996, 2.

çəkilən əsərində fiqh və hədis elmlərinin fundamental metodoloji problemlərinə toxunmuşdur.

Bundan başqa Şiə məzhəbində dövrünün qüdrətli alimlərindən olmuş Şeyx Həsən bin Əli bin Üqeyl əl-Əmaninin (öl. 941) yazdığı "əl-Mütəməssik bi həbli Alir-Rəsul (s)" adlı əsəri də fiqh üsulu tarixində mühüm yerə sahibdir. Amma əfsuslar olsun ki, yuxarıda adını çəkdiyimiz əsərlərin heç biri dövrümüzədək gəlib çıxmamışdır.

Fiqh üsulu mövzusunda dövrümüzədək gəlib çıxmış ilk kitab Şeyx Müfidindir (öl. 1022). Onun əsəri "ət-Təzkirə bi-üsulil-fiqh"dir. Kitab "Bilin ki, şəri hökmlərin əsası üçdür: Allahın kitabı, Peyğəmbərin (s) sünnəsi və məsum İmamların (ə) sözləridir", cümlələri ilə başlayır.[2] Həmin cümlələrdən məlum olur ki, Şeyx Müfid şəri ehkamın qaynağını Kitab (Qurani-Kərim), Peyğəmbərin (s) sünnəsi və Məsumların (ə) sözləri olaraq qəbul etmişdir. Ona görə bu qaynaqlardakı şəri elmi (məlumatı) əldə etməyin yolları üçdür.Bunlardan birincisi ağıldır (əql). Ağıl Qurani-Kərimin höccət (dəlil) olmasının və hədislərin dəlalət etdiyi şeylərin bilinməsinə aparan vasitədir.İkincisi lisandır (dil). Lisan kəlmələrin mənalarının bilinməsi üçün bir vasitədir.

Üçüncüsü isə hədislərdir (əxbar) ki, bu Quran, Peyğəmbərin (s) sünnəsi və İmamların (ə) dediklərinin isbatı üçün lazımi vasitədir.[3]

Şeyx Müfidin "ət-Təzkirə bi üsulil-fiqh" əsərindən sonra ən əhəmiyyətli üsul əsəri Seyid Mürtəzanın (öl. 1044) "əz-Zəriə ila üsuliş-şəriə"sidir. Seyid Mürtəzanın digər üsul əsəri də "Rəsailüş-Şərifi Mürtəza"dır.

Seyid Mürtəza ağılı (əql) digər əsas dəlillərə əlavə edərək onu şəri elmi (məlumatı) əldə etmək üçün bir vasitə deyil, onu müstəqil bir dəlil olaraq Quran, Sünnə və İcma kimi əsas qaynaqların arasına daxil etmişdir. Bunlara baxmayaraq o, "ictihad" məfhumuna qarşı çıxmışdır.[4]

Şeyx Tusi (öl. 1067) də üsul alimlərindəndir. Onun bu mövzuda yazdığı ən qiymətli əsəri "əl-Üddətu fi üsulil-fiqh"dir. Şeyx Tusi fiqhi dəlilləri tədqiq edərkən Quran, Sünnə, lisan (dil) və əqli dəlilləri qeyd etmişdir. O, yeri gəldikdə Seyid Mürtəzanın fikirlərinə də yer vermiş və onun ifadələrini işlətmişdir.[5]

Şeyx Tusidən sonra Əbu Əli Həsən bin Fəzl ət-Təbərisinin (öl. 1153) yazdığı "ət-Təmhid fil-üsul", Mühəqqiq əl-Hillinin (öl.1277) "Şəraiul-İslam fi məsailil-halal vəl-

---

[2] Şeyx Müfid, *ət-Təzkirə bi-üsulil-fiqh,* IX c. Beyrut: Darul-Müfid, 1993, 28.
[3] Həmin mənbə.
[4] Əbülqasim əl-Mürtəza, *əz-Zəriə ila üsuliş-şəriə. II c.* Tehran: İntişarate-Daneşgahe-Tehran, 1363, 792-794.
[5] Şeyx ət-Tusi, *əl-Üddə fi üsulil-fiqh.* I c., 1417, 99-101.

haram", "Məaricül-üsul", İbn Mütəhhər əl-Hillinin (öl. 1325) "Təhrirül-əhkamiş-şəriyyə əla məzhəbil-İmamiyyə" və s. adlı əsərlər Şiə məzhəbinin fiqh üsulu elminə aid əsas mənbələrindəndir.

Adı çəkilən alimlərə görə, şəri hökmlərin dəlilləri Kitab (Qurani-Kərim), Sünnə (hədis), icma və ağıldır (əql). Beləliklə, fəqihlərin qeyd edilən dəlillərə qısa olaraq baxışı aşağıdakı kimidir:

Kitab (Qurani-Kərim) birbaşa vəhyə bağlandığı və təvatür (ardıcıl şəkildə) yolu ilə nəql edildiyinə görə, qaynağına şübhə olmadığı üçün birinci dərəcəli bilgi və hökm qaynağıdır. Quranın dəlil olması mövzusunda heç bir ixtilaf yoxdur. İxtilaf yalnız Quranın zahirinin (zahiri mənalarının) dəlil olub-olmaması mövzusundadır. Quranın zahiri bir mənaya dəlalət edə bildiyi halda, başqa bir mənaya da dəlalət ola bilər.

Qurani-Kərim həzrət Peyğəmbər (s) dövründə şəri hökmü zəruri qılan bir hadisə olduqda ya həmin hadisənin hökmünü bildirən ayə nazil olurdu, ya da həmin məsələ həzrət Peyğəmbərə (s) təqdim olunur və o da məsələyə aydınlıq gətirirdi. Yəni həzrət Peyğəmbər (s) dövründə fiqhin mənbələrini Quran və Sünnə təşkil edirdi. Qurani-Kərimin təvatür yolu ilə bir hərfi belə dəyişdirilmədən indiki dövrümüzə gəlib çatması mövzusunda müsəlmanlar arasında heç bir ixtilaf yoxdur.

Şiə məzhəbinə görə, Kitaba (Qurani-Kərim) məzmunu eyni olmaqla müxtəlif təriflər verilmişdir. Həmin təriflərin bir neçəsini qeyd etmək mövzunu aydınlaşdırmaq baxımından faydalı ola bilər.

Belə ki, Kitab (Quran) "Həzrət Məhəmmədə (s) vəhylə endirilmiş, peyğəmbərdən nəqlən müshəflərdə yazılmış, nəqli mütəvatir və şübhəsiz olan Qurandır". Qurani-Kərim müsəlmanlarla yanaşı, bütün bəşəriyyətə höccətdir (dəlildir). O ərəb dilində nazil olub başqa dillərdəki tərcüməsi və təfsirləri Quran sayılmır.[6] Məhəmməd Cəvad əl-Muğniyyənin təbirincə desək, Quranda təxminən altı mindən çox ayə vardır ki, bunlardan da beş yüzü ehkam ayələridir. Ehkam ayələrinin çoxu ibadətlər və ailə hüququ haqqında hökmlərdir.

Digər bir tərifdə isə deyilir: "Quran Məhəmməd bin Abdullaha (s) endirilmiş və heç bir təhrif və dəyişiklik olmadan bizə qədər gəlib çatan kitabdır. Bu elə kitabdır ki, nə əvvəl nə də sonradan ona batil qarışmaz. O kitab müsəlmanların hökmlərində, ibadətlərində, əqidələrində və bütün işlərində baş vuracaqları ən uca qaynaqdır. Kim o kitab haqqında şübhəyə düşərsə, müsəlman hesab edilmir. Məzhəbindən asılı olmayar

[6] Əbdülkərim Zeydan, *Üsulul-fiqh,* Beyrut-Lübnan: Müəssisəti-Risalə, 1998, 152-159.

bütün müsəlmanlar Quranın müqəddəsliyi və ona hörmət edilməsi barəsində müttəfiq fikirdədirlər. Lakin müsəlman ümməti onun təfsir və təvilində (izahında) ixtilaf etmişlər. Kitabın təfsir və təvilində Şiə məzhəbinin mənbəyi həzrət Peyğəmbərin (s) hədisləri və Əhli-beytin (ə) şərhləridir.[7]

Sünnə (hədis) Məsumların (ə) söz, fel (hərəkət) və təqriləridir (qərarlarıdır). Həzrət Peyğəmbərdən (s) başqa digər Məsumların (ə) elmi ya ilham yolu ilə, yaxud da hər İmamın (ə) özündən sonrakı İmama (ə) öyrətməsi ilə əldə olunur. Sünnənin dəlil olması onun möhkəm (çox doğru) olmasına və onun rəvayət ediliş şəklinə bağlıdır. Təvatür yolu ilə nəql edilən hədis həm əqidə, həm də əməl sahəsində dəlildir, höccətdir. Təvatür dərəcəsinə çatmamış (doğruluğu 100 faiz sübut olunmamış) hədislər dəlil olma baxımından ixtilaflıdır. Əxbarilərə görə, dörd hədis kitabında ("Üsulül-kafi", "əl-Fəqih", "Təhzibül-əhkam", "əl-İstibsar") keçən hədislər səhihdir və onlarla əməl edilməlidir. Bunu da qeyd edək ki, Şiə olmayan ravilərin nəql etdikləri hədisləri mötəbər dəlil sayan bəzi üsulçular da vardır. Ancaq burada Şiə olmayan ravinin dindar və hədis mövzusunda yalan söyləməyən bir şəxs olması şərtdir. Bir mövzuda Şiə ravilərdən rəvayət nəql olunmayıbsa, digər məzhəblərdən sağlam olan ravilərin rəvayətləri ilə əməl edilir.

Hədisin (sünnənin) bir əsli dəlil olması, onun verdiyi hökmə əməl edilməsi baxımından Kitabdan (Qurani-Kərimdən) bir fərqi olmaması mövzusunda heç bir ixtilaf yoxdur. Buna "əl-Həşr" surəsinin: "Peyğəmbər sizə nəyi verirsə onu götürün (ona əməl edin), nəyi də qadağan edirsə ondan uzaq durun", ayəsi dəlalət edir.[8] Şiə məzhəbinə görə sünnənin dəlil olması məsum İmamların (ə) sözü ilə də sabitdir. İmam Musa Kazim (ə) buyurub: "...Hər şey Allahın kitabında və Nəbinin sünnəsində mövcuddur".[9] İmam Cəfər Sadiq (ə) də Quran və sünnə haqqında belə buyurmuşdur: "Hər şey Quran və Sünnəyə qaytarılır, hər hansı bir hədis Allahın kitabına uyğun gəlmirsə, o uydurma bir sözdür".[10]

Göründüyü kimi, sünnə Quranın tamamlayıcısıdır və bunların hər ikisi də İslamın təməl qaynaqlarıdır. Qurani-Kərimdəki ayələr tam təfsilatlı şəkildə deyil və bu ayələrin "ümumluq", "xüsusluq" "icmali" və "təfsili" olmaq yönündən sünnə tərəfindən izaha

---

[7] əs-Seyyid Haşim Məruf əl-Həsəni, *Tarixül-fiqhil-Cəfəri, Tarihsiz,* 12.
[8] Qurani-kərim, Həşr surəsi, ayə 7, Tərc: Z.Bünyadov, V.Məmmədəliyev, Bakı: Azərnəşr, 1991.
[9] əl-Küleyni, *Üsulul-kaf,* I c. "Elmin fəziləti", *Üsulul-kafi, 8 cilddə. I c.* Tehran: Darul-kütubil islamiyyə,Tarixsiz.
[10] Həmin mənbə.

ehtiyacı var. Qurani-Kərimdə dəstəmaz, namaz, oruc və s. hökmlər mücməl şəkildə ifadə olunmuş, bunların təfsilatı həzrət Peyğəmbərə (s) həvalə edilmişdir. Yəni sünnə yeni şəri hökmlər ortaya qoymaqla yanaşı, eyni zamanda Kitabı (Quranı) izah edir. Uca Allah həzrət Peyğəmbərin (s) bu vəzifəsini Qurani-Kərimdə belə bəyan edir: **"Biz zikri** (Quranı) sənə endirdik ki, sən (onu) insanlara açıqlayasan və bəlkə də onlar bunu təfəkkür edələr".[11] Bu və bunun kimi ayələrə əsaslanaraq bütün ümmət sünnənin əsaslı bir dəlil olduğunu qəbul etmişdir.[12]İcma müctəhidlər arasında məsum İmamın (ə) olması və bununla da onun görüşünü ehtiva etməsi şərti ilə dəlildir (höccətdir). İcmada İmamın (ə) sözünün olub-olmadığını bilmək üçün ortaya qoyulan bir çox üsul (metod) vardır. Məlumdur ki, həzrət Peyğəmbər (s) dövründə şəri hökm çıxarılmasının yeganə mənbəyi Kitab (Qurani-Kərim) və həzrət Rəsulun (s) sözləri idi. Həzrət Peyğəmbər (s) yaşadığı müddət ərzində müsəlmanlar vacib əməlləri öyrənmək istədiklərini və digər işləri ilə əlaqəli dəlilləri ondan soruşurdular. Peyğəmbər (s) kənd və çöllüklərdən İslama daxil olan insanlara ehkamı öyrətmək üçün müəllimlər göndərirdi. Bəzən də bir neçə hökm yazdırıb məktub şəklində bölgə sakinlərinə göndərirdi, necə ki, Yəmən, Həmədan və Hicr bölgəsinə namaz, zəkat və nikah ilə əlaqəli bəzi hökmləri yazdırıb göndərmişdi.[13]Ancaq həzrət Peyğəmbərin (s) vəfatından sonra onun dövründə olmayan hadisələr meydana gəldi. Cihadlar nəticəsində İslam bölgələri genişləndi və fəth olunan yerlər müsəlman ərazilərinə birləşdi. Bu zaman da fiqhə, şəriətə ehtiyac daha da artdı. Belə olduğu halda da məsələlərlə bağlı bütün hökmləri birbaşa Quran və Sünnədən çıxartmaq mümkün olmadı. Üsul sahəsindəki digər dəlillər isə həmin qaynaqlara əsaslandırılaraq həzrət Peyğəmbərin (s) vəfatından sonra meydana gəlmişdir.[14]

Şiə alimlərinin icmanı qəbul etmə səbəblərinin bir çox dəlilləri vardır.[15] Məhəmməd əs-Sədr (1945-1979) də icmaya müstəqil dəlil olaraq yox, sadəcə bilgiyə çatdıran bir vasitə olaraq baxır. Beləliklə qədim alimlərdən tutmuş müasir dövrümüzədək olan bütün fəqihlərə görə, icmanın hüccət (dəlil) ola bilməsi üçün İmamın (ə) da o icmada olması zəruridir. Məsumun (ə) olmadığı icmanın heç bir dəlil dəyəri yoxdur. Bu, bütün fəqihlərin ittifaq etdiyi məsələdir.

---

[11] Nəhl surəsi, ayə 44.
[12] Şeyx Amir əl-Ğüreyri. *əl-İmam Cəfər əs-Sadiq və ərahul-fiqhiyyə,* Beyrut: Darul-Kutubul-İlmiyyə, 2005, 54-55.
[12] Maidə surəsi, ayə 92.
[13] əl-Ğüreyri, *əl-İmam Cəfər əs-Sadiq və ərahul-fiqhiyyə,* Beyrut: Darul-Kutubul-İlmiyyə, 2005, 55.

[14] əl-Həsəni, *Tarixul-fiqhil-Cəfəriyyə,* 38.
[15] əl-Həsəni. *Tarixül-fiqhil-Cəfəriyyə,* 47.

Ağıl üsulilərə görə dördüncü əsli dəlildir. Lüğəvi olaraq "varlıqları dərk etmək", "mənaların həqiqətinə varmaq" və s. kimi mənaları bildirir. Ağıl insanın hər cür fəaliyyətlərində doğrunu səhvdən, yaxşını pisdən, gözəlliyi çirkinlikdən ayıran bir qüvvə olaraq əxlaqi-gözəllik, siyasi-ictimai dəyərləri müəyyən edən ən mühüm amillərdəndir. İstilahi olaraq isə "şəri hökm haqqında dəqiq bilgiyə çatdıran əqli bir hökm", kimi tərif edilir.[16]

Qurani-Kərimə görə insana insani keyfiyyətlər qazandıran, onu digər canlılardan fərqləndirən və ona dini mükəlləfiyyət verən ağıldır. Qurani-Kərimin bir neçə yerində buna işarə edilmişdir. Məsələn, "Yalnız bilənlər düşünərlər (əql edərlər)",[17] "Ey ağıl sahibləri, ibrət alın"[18] və "Onlar kar, lal, kordurlar, buna görə də ağılları ilə bir şeyi görməzlər",[19] şəklindəki ayələr bu xüsusa işarə etməkdədir.

Hədis mənbələrində də ağıla üstünlük verən bir çox hədislər nəql olunmuşdur. Məsələn, "Kimin ağılı varsa, onun dini də vardır, kimin də dini varsa cənnətə girər",[20] "Allah insanları qiyamət günü hesab vaxtı dünyada verdiyi ağıl səviyyəsinə görə sorğu-sual edər"[21] və "Allah insanlar arasında ağıldan dəyərli bir şey bölməmişdir. Allah nəbi və rəsullarını ağıl baxımından tam kamilləşdirməyincə şəriətlə vəzifələndirməmişdir...",[22] "Hər kəsin dostu onun ağılı, düşməni isə cəhalətidir"[23] və s. kimi hədislər dinin ağıla verdiyi əhəmiyyəti göstərməkdədir.

Şeyx Müfid "əl-Əql fi üsulid-din" kitabında ağılı insanı dini baxımdan məsul edən, onu digər canlılardan fərqləndirən, düşünmə və anlamağa vəsilə olan, peyğəmbərlərin göndərilməsinin də ağıl vasitəsilə təsbit ediləcəyini qeyd etmişdir. Heyvanların, ağılsızların və uşaqların dini baxımdan mükəlləf sayılmamaları, ağılın dini baxımdan nə qədər əhəmiyyət kəsb etdiyini göstərir.[24]

Şeyx Tusi kitabının giriş bölümündə ağılı "bəzi yaxşı və pis şeyləri və şəri dəlilin dəlil olduğunu idrak edən", şəklində tərif etmişdir..

İlk olaraq üsuli qaydaları ortaya qoyanlardan biri Şeyx Müfid olduğu üçün ağıl mövzusuna da ilk bəhs edənlərdən biri odur. Şeyx Müfid dövründə ağıl müstəqil bir dəlil olaraq istifadə edilməmişdir. Şeyx Müfid ağlı şəri hökm çıxarmada müstəqil bir

---

[16]Süleyman Hayri Bolay. *"Akıl", Diyanet İslam Ansiklopedisi*, II c. İstanbul: TDV Yayınları, 1989, 238.
[17] Ənkəbut surəsi, ayə 43.
[18] əl-Həşr surəsi, ayə 2.
[19] Bəqərə surəsi, ayə 171.
[20] əl-Küleyni, *Üsulul-kafi. 8 cilddə. I c.* Tehran: Darul-kütubil-islamiyyə, Tarixsiz, No: 6.
[21] Həmin mənbə, Hədis № 7.
[22] Həmin mənbə, Hədis № 11.
[23] Həmin mənbə, Hədis № 4.
[24] Karaman, *Şiada şeri deliller,* 339.

dəlil yox, Quran və hədisi anlamaqda vasitə olaraq görmüşdür. Ona görə şəri dəlillər Kitab, Sünnə və İcma olmaqla üçdür, ağıl isə şəri dəlilləri əldə edə bilmək üçün üç yoldan biridir. Digərləri isə lisan (dil) və əxbardır (xəbərlərdir). Müəllifə görə, lisanı bilən hər kəs nəsləri anlaya bilər. Ağıl təkbaşına dinin təməl əsaslarını və vəcibələrini anlamaq imkanında deyildir. O, yalnız vəhyin rəhbərliyi altında hadisələrin həqiqətini dərk edə bilər.[25] Əhli-sünnədən Qəzali (öl. 1111) və Şövkani (öl. 1834) də ağılı dəlil olaraq qəbul etmişdilər. Bu dəlil Uca Allahın verdiyi ağılla Allah yanında olan hökmü kəşf etməkdir. Bütün ağıllar bir şeyin yaxşı və gözəl olduğu nöqtəsində ittifaq etdikdə, Allahın da o şeyin gözəl və yaxşı olduğuna, bu bir feldirsə onun failini tərifləyib mükafatlandırdığına, etməyəni isə qınayıb cəzalandıracağına ağıl vasitəsi ilə hökm edilir və ağıl bu mənada dini dəlillərə daxildir.Göründüyü kimi, Şiə məzhəbində dəlillər ümumi olaraq Kitab (Qurani-Kərim), Sünnə, İcma və Əqldir (Ağıl). Kitab bu dörd şəri dəlillərin birincisidir.[26]

## II. Şiənin əsas hədis qaynaqları

Şiə hədis alimləri hədisləri, hədis ravilərini bir yerə toplayan və hədis üsulu ilə əlaqəli kitablar yazmışlar.[27] Yazılmış bu kitablar arasında üç müəllifə məxsus olan dörd kitab ("Kütubu-ərbəə") əsas qaynaqlardır və onlar aşağıdakılardan ibarətdir:

### II.1. Məhəmməd bin Yaqub əl-Küleyni və "Üsulul-kafi" əsəri

Məhəmməd bin Yaqub bin İshaq əl-Küleyni ər-Razi təxminən 879-cu ildə Rey ilə Qəzvin şəhərlərinin arasında yerləşən Küleyn kəndində doğulmuşdur. Küleyni doğulduğu yerə nisbətlə tanınmışdır. Onun künyəsi Əbu Cəfərdir.Miladi X əsrin ən böyük alimi hesab edilən Küleyni öz dövründə İslam aləminin, xüsusilə də Şiə məzhəbinin öndə gələn alimi olmuşdur.Şeyx Küleyni dünya müsəlman alimləri tərəfindən həmişə öyülmüş və İslam ümməti onu daim iftixar hissi ilə yad etmişdir. O, insanların ən etibarlısı, ədalət və zəbt baxımından ən qabaqcılı idi. Küleyni bütün cəhətlərinə görə mədh edilmişdir. Ensiklopedik biliyə malik olan alim İslamın fətva verəni və X əsrdə Şiə məzhəbinin lideri idi.Küleyninin ən məşhur əsəri "Üsulul-kafi"dir. Əsər etiqad və fiqhlə əlaqədar bütün fəsilləri əhatə edir və üç hissədən ibarətdir:

---

[25] Şeyx Müfid., *ət-Təzkirə bi-üsulil-fiqh, IX c.* Beyrut: Darul-Müfid, 1993, 28-29.

[26] Mürtəza əl-Ənsari, *Fəraidul-üsul,* Qum, Müəssisətu nəşril-islami, 1416 h/q.; Məhəmməd Baqir əl-İrəvani, *Kifayətul-üsul,* Nəcəfül-əşrəf, Müəssisətu ihyait-türasiş-şii, 1439 h/q.; Əli Nəqi əl-Heydəri. *Üsulul-istinbat,* Tehran: Darul-kütubil-islamiyyə, 1364 h/ş.; Cəfər əs-Sübhani, *əl-Mücəvviz fi üsulil-fiqh,* Beyrut: Darül-Cavadil-əimmə (ə), 1432/2011 və s.

[27] İbrahim Quliyev, *Hədisşünaslığın əsaslar,* Bakı: Elm, 2013, 251-278; 279-303; 344-363.

- Üsulu-kafi,
- Fürui-kafi,
- Rövzətül-kafi.

Əsərin "Üsulu-kafi" hissəsində etiqad və imana aid hədislər, "Fürui-kafi" bölməsində fiqhə aid hədislər, "Rövzətül-kafi" bölməsində isə müxtəlif mövzuları ehtiva edən hədislər yerləşdirilmişdir.

Küleyninin bu əsərində 16199 hədis vardır. Bu görüşü Şeyx Müfid də təsdiqləməkdədir.Əsərdə yer alan hədislərin səhihliyinə gəldikdə isə, orada bütün hədislərin səhih olmamasını deyənlər vardır.Küleyni 941-ci ildə Bağdadda vəfat etmişdir.

**II.2. Şeyx Səduq və "əl-Fəqih" əsəri**

Şeyx Əbu Cəfər Məhəmməd bin Əbülhəsən Əli bin Hüseyn bin Babaveyh əl-Qummi 915-ci və yaxud da 917-ci ildə doğulmuşdur.Şeyx Səduqun qələmə aldığı əsərlər içərisində "Mən la yəhzuruhül-fəqih" əsərinin xüsusi yeri vardır. O, əsərində Peyğəmbər (s) və məsum İmamların (ə) sözlərini toplamış, onları fiqhi bablar əsasında tərtib etmişdir.Şeyx Səduq 991-ci ildə ildə Reydə vəfat etmiş və Tehran şəhərinin nahiyəsində Əbdüləzim əl-Hüseyninin qəbri yaxınlığında dəfn edilmişdir.[28]

**II.3. Şeyx Tusi və "Təhzibül-əhkam" ilə "əl-İstibsar" əsərləri**

Bu əsərlərin müəllifi Məhəmməd bin Həsən ət-Tusidir. O, 995-ci ildə Tusda doğulmuşdur. O, 23 yaşında İraqa səyahət etmiş və Bağdadda məskunlaşmışdır.[29] Bağdada səfər etdikdən sonra dövrünün nəhəng alimi Məhəmməd bin Nöman (Şeyx Müfid) (öl. 1022) ilə görüşmüş və Şeyx Müfidin ölümünün sonunadək onun tələbəsi olmuşdur. Həmçinin o, dövrünün ikinci böyük alimi olan Şeyx Mürtəza deyə məşhur olan Əbülqasım Əli bin Əbi Əhməd əl-Hüseyn bin Musanın (öl. 1044) da yanında elm öyrənmişdir. Seyid Mürtəza vəfat etdikdən sonra Tusi Şiə-imamiyyə məzhəbinin mərcəi olmuşdur. O, məsum İmamlardan (ə) sonra ən böyük elmi şəxsiyyət olaraq dəyərləndirilmişdir.

"Təhzibül-əhkam" əsərini Şeyx Tusi ustadı Şeyx Müfidin "əl-Müqniə" adlı əsərinə şərh olaraq yazmışdır.

---

[28] Möhsün əl-Əmin, *Əyanüş-şiə,* 10 cilddə. Vııı. c. Beyrut: Darut-təarif, 1403/1983, 24.
[29] Həmin mənbə, IX c., 159.

Əsər 23 kitabdan (ana bölüm), 393 babdan (kiçik fəsil) və 13590 hədisdən ibarətdir.[30]

Əsər 23 böyük fəsli (kitabı) ehtiva edir:

Şeyx Tusinin hədis sahəsində yazdığı ikinci dəyərli əsəri "əl-İstibsar fima üxtulifə minəl-əxbar"dır. Əsər "Kütubu ərbəə"nin dördüncüsü hesab edilir. Müsəlman alimləri "Təhzibül-əhkam"a önəm verdikləri kimi bu əsərə də yüksək qiymət vermiş və şəri hökmlərin istinbat edilməsi üçün buna müraciət etmişlər.

Əxbar və fiqhdə olan halal və haram haqqındakı ixtilaflı hədisləri ehtiva edən bu əsər 5511 hədisdən ibarətdir.[31] Əsər özəlliyinə görə, "Təhzibül-əhkam"ın müxtəsəri kimi dəyərləndirilir. Həmçinin "əl-İstibsar" tərtib baxımından da ona bənzəyir.

Nəticə olaraq bunu qeyd etmək olar ki, Şiə-imamiyyə məzhəbində üsul elmlərinə aid ilk əsərlər məhz hicrətin ilkin əsrlərində yazılmış, daha sonrakı dövrlərdə isə üsula aid bəzi məfhumlar ortalığa qoyulmuş və zaman keçdikcə də inkişaf etdirilmişdir.

Bütün bunlardan başqa, məqalədə Qurani-Kərimlə yanaşı, Şiə məzhəbində hədislərin də ikinci əsas qaynaq olması, hədislərsiz Quranın doğru-düzgün başa düşülməsinin mümkünsüzlüyü vurğulanmış və sözügedən məzhəbin əsas hədis qaynaqları tanıtdırılmışdır.

---

[30] Həmin mənbə, 161.

[31] Möhsün əl-Əmin. *Əyanüş-şiə*. IX c., 165.

**Nəticə**

Beləliklə, bu məqaləmizdə belə nəticəyə gəldik ki, İslami məzhəblər arasındakı məsələlərin mütləq bir əsası vardır və hər bir məzhəb öz əqidəvi və şəri (hüquqi) dəlillərini Quran və sünnəyə əsaslandırmaqdadırlar. Digər məzhəb ardıcılları kimi, on iki imamçı şiələri də şəhadət verirlər ki, Allahdan başqa Allah yoxdur, o təkdir heç bir şəriki yoxdur, doğmayıb, doğulmayıb və ona bütün kamil sifətlər şamildir. O, bütün növ naqis sifətlərdən uzaq və pakdır. Onun kimi heç bir şey və oxşarlıq yoxdur. Məhəmməd peyğəmbər (s) onun bəndəsi və elçisidir. O, Allahın sonuncu peyğəmbəridir. O, Allah tərəfindən haqq olaraq göndərilmişdir, doğrudan doğrudur. Bu əqidəni şiələr təqlid üzündən deyil, dəlil və sübutla ələ gətirirlər. Allah 124 min peyğəmbər göndərmiş və onlara iman gətirməyi vacib etmişdir.Şiələrə görə, Allah Rəsulundan (s) sonra insanların ən üstünü İmam Əli (ə) və onun on bir övladıdır (ə). Onlar xilafətə hamıdan daha layiqlidirlər. O, imamlar ki, elm və təqvada hamıdan üstün olmuşlar. Onların imamətini qəbul etməyi vacib bilirlər. Lakin bunu İslamın əsaslarındandır deyib inkar edəni küfrdə günahlandırmırlar.Şiələr dinin bütün hökmlərini Allahın kitabı olan Qurani-Kərimdən və səhih hədislərdən götürüldüyünü deyirlər. Onlar Quranın Allah tərəfindən göndərildiyini, orada nasix və mənsux, möhkəm və mütəşabeh ayələrin olduğunu və bunların tanınma yollarını bilirlər. Bu ayələrin yozum və təfsirində Peyğəmbər (s) və on iki İmamdan (ə) gələn mütəvatir və səhih hədisləri əsas götürürlər.Şiələr Allahdan Peyğəmbərə (s) göndərilmiş kitaba etiqad bəsləyir, ona batil və naqisliyin daxil olmasını qəbul etmirlər. Onlar Kəbəni qiblə bilir, oraya üz tutub gündə beş namazı qılmağı vacib bilirlər. Namaz vaxtı dəstəmazı, cənabət, heyz və nifas qüslu və ya zərurət olarsa, təyəmmümü vacib bilirlər.

**Mənbə və ədəbiyyat siyahısı**

BOLAY, S. H., *"Akıl", Diyanet İslam Ansiklopedisi,* II: 246-247, Ankara: TDV Yayınları, 1989

ƏBU ZƏHRA, M., *əl-İmam əs-Sadiq, həyatuhu və əsruhu,* Darül-fikril-ərəbi, Tarixsiz.

ƏS-SÜBHANI, C., *əl-Mücəvviz fi üsulil-fiqh,* Beyrut: Darül-Cavadil-əimmə (ə), 1432/2011.

ƏS-SƏDR, M. B., *Dürus fi ilmil-üsul. 2 cilddə, I c.* Beyrut: Məktəbətül-mədrəsə, 1406/1986.

ƏL-ĞÜREYRI, Ş. A., *əl-İmam Cəfər əs-Sadiq və ərahul-fiqhiyyə,* Beyrut: Darul-Kutubul-İlmiyyə, 2005.

ƏL-HƏSƏNI, H. M., *Tarixül-fiqhil-Cəfəri. Darul-kütubil-İslamiyyə,* Tarixsiz.

ƏL-HEYDƏRI, Ə. N., *Üsulul-istinbat,* Tehran, Darul-kütubil-islamiyyə, 1364.

ƏL-İRƏVANI, M. B., *Kifayətul-üsul,* Nəcəfül-əşrəf, Müəssisətu ihyait-türasiş-şii, 1439 h/q.

ƏL-ƏMIN, M., *Əyanüş-şiə, 10 cilddə. IX c.* Beyrut: Darut-təarif, 1403/1983.

KARAMAN, H., *"Caferiyye", Diyanet İslam Ansiklopedisi,* c. VII: 4-10, İstanbul: TDV Yayınları, 1996.

....................... *İslam hüququnda ictihad,* Ankara, DİB Yayınları, 1985.

........................*Şiada fıkh üsulu ve şeri deliller,* İstanbul, 1993.

........................*Şiada fıkıh usulü ve şeri deliller. Milletlerarası tarihte ve günümüzde şiilik sempozyum, Tartışmalı ilmi toplantılar dizisi,* İstanbul, 1993.

KÖKSAL, İ., ''Fıkhı mezhepler arasındakı üsul farklılıkları'',*Harran Universitesi İlahiyat fakültesi dergisi*, sy. VI, (2000):43-82.

ƏL-KÜLEYNI, M. Y., *Üsulul-kafi. 8 cilddə. I c.* Tehran, Darul-kütubil-islamiyyə, Tarixsiz.

ƏL-MÜRTƏZA, Ə., *əz-Zəriə ila üsuliş-şəriə. II c.* Tehran: İntişarate-Daneşgahe-Tehran, 1363.

ƏL-MÜZƏFFƏR, M. R., *Üsulul-fiq,* Qum, 1368/1989.

ƏL-ƏNSARI, M., *Fəraidul-üsul.* Qum, Müəssisətu nəşril-islami, 1416 h/q.

ŞEYX ƏT-TUSI, əl-*Üddə fi üsulil-fiqh, 2 cilddə. I c.* Qum, I çap, 1417 h/q.

ŞEYX MÜFID, *ət-Təzkirə bi-üsulil-fiqh, IX c.* Beyrut: Darul-Müfid, 1993.

TƏBATƏBAI, H. M., *Müqəddimeyi bər fiqhe Şiə,* Məşhəd, 1368.

QURANI-KƏRIM, Tərc: Z.Bünyadov, V.Məmmədəliyev, Bakı: Azərnəşr, 1991.

ƏL-XOYI, Ə., *Möcəmu ricalil-hədis. 23 cilddə,* XIX c. Beyrut: 1413/1993.

ZEYDAN, Ə., *Üsulul-fiq,* Beyrut-Lübnan: Müəssisəti-Risalə, 1998.